# Səndən başqa heç kim...

## *Elçin İsgəndərzadənin "Xoşbəxtliyin rəngi" kitabı üzərinə*




Həmişə düşüncələrində, ruhunda, yanında yaşatdığından illərcə ayrı düşməyinin ağrısı sərgilənib Elçin İsgəndərzadənin "Xoşbəxtliyin rəngi" kitabında. Oxuduqca burnumuzun ucunda darıxır

*Olanlar,*
*unudulanlar,*
*ötənlər.*
*Bir də mən,*
*darıxıram hamıdan ötrü.*
*Hamı da o gündə,*
*O ötən gündə...*

Burnumuzun ucunda ayrılıqların darıxacağını fərq edirik Elçini oxuduqca. Bir uşaq yüyürür xəyallardan üstümüzə. Baxıb görürük ki, bu uşaq özümüzükmüş. Bir ömür başlayır bundan o yana. Oxuyar və inanmazsan

*Necə olur*
*ürəyində "gələr" deyə*
*birinə yer saxlamaq.*
*...İnanmazsan*
*dəli olur adam sonra, lap sonra*
*gözlərinin çəkdiyi yol*
*uzun gəlir yollara...*

Haçansa qırdığımız çiçəkləri qəbrimizin üstündə görürük belə yaşantılarda. İstəyirsən günlər gələ, hamı ola içində. "Xəyallara buraxdığın gəmi ola içində..." "Ağır olur yaşamaq biləndə yaşamırsan". Elə hey düşünüb qalırsan ki:

*Havaların doğmalığı*
*havama qovuşmur, qovuşmur.*
*Gedənlər dən-dən sovuldu,*
*dərdlər sovuşmur, sovuşmur.*

Buludlu xatirələr bir ismi pünhanın adıyla bağlı olur. Və onlu dünyanın onsuzluğunda "ömrün qaranlıq tərəfindən açılır sabahlar, qaranlıq yerindən açılır güllər, qaranlıq yerindən qoxuyur bütün şəhərlər". Baxıb görürsən ki:

*Bu yer üzü ən çox yaza həsrət,*
*bir qızın dodaqları*
*ən çox bir gözəl sözə həsrət.*
*Sevdalar ən çox bu qıza həsrət.*

"Hərdən hər şeyi unutmağın gəlir. Təzə adam olmaq istəyirsən, adamlara qarışmaq, adamlar kimi olmaq, adamlar kimi yaşamaq, adamlar kimi vecsizlik keçir könlündən". Amma

*Sadəcə keçər...*
*İstəsən də*
*adamlar kimi ola bilməzsən...*

Elçin İsgəndərzadənin yazdıqlarıdı! Sadəcə, üzünü ağ vərəqə köçürürsən. O yazılanlar ömrünün dilmancına dönür.

Səni səndən alır, bir uzaq səfərə götürür. Şəkillərində yüyürdüyün küçələr, şəkillərdə döndüyün dalan və tinlər çəkir könlünü. Şəkillərdə boylandığın pəncərələr əl edir, əl edir, əl edir sənə... Bir yad ömür yaşayırsan elə bil. Götürüb Elçinin əliylə yazmaq, diliylə demək istəyirsən:

*Özgə kimi keçirəm*
*Ömürdən, gündən...*
*...Qışla yayın arasında*
*Fəsillərin necə olduğunu*
*Yadırğamışam.*

Davam edir deyəcəklərin. Davam etmək, öz könlünün əsintiləri kimi ünvanına çatdırmaq istəyirsən Elçinin yazdıqlarını:

*Hafizəmdə*
*demədiyim bir sözün*
*hüznü isladır deyəcəklərimi.*
*Bütün sözlər*
*islanıb gəlir varağa.*
*O söz yalnız,*
*mən yalnız.*
*...Yalnızlıq qədər yalnızam,*
*tənhalıq qədər tənhayam.*

Amma macalın olmur "o son sözü bir də təkrar etməyə".

Çünki Elçinin yeni şeir silsiləsi gəlir ardınca. Oxumaq, oxuduqca da fikirlərini bölüşmək, yenidən yaşamaq həvəsin artır. Oxuduqca da daşınırsan "hamıdan eyni anda getmək" istəklərindən.

*Sanki bu qələbəlikdə*
*tək sən belə gülərsən,*
*tək sən belə ağlayarsan,*
*tək sən belə olarsan...*
*Səndən başqa heç kim...*

**Sərvaz**